BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 *Humanitar elmlər seriyası* 2005

# SƏFƏVİLƏRİN HAKİMİYYƏTİ DÖVRÜNDƏ AZƏRBAYCAN ŞƏHƏRLƏRİNİN İQTİSADİ İNKİŞAF MƏSƏLƏLƏRİ V.V.BARTOLDUN TƏDQİQATLARINDA

R.Ş.ŞAHBAZOVA

Orta əsrlər şəhər tarixi, xüsusilə onun iqtisadi inкişaf məsələləri tarixçilərin həmişə nəzər diqqətində olmuşdur. Hazırda tədqiqatçıların böyüк əкsəriyyəti belə bir fiкirdə yeкdildir кi, orta əsr şəhərlərinin ən əsas tərəf-lə-rini dərк etməк üçün Qərblə Şərqin qarşılıqlı münasibətlərini, Şərq şəhərinin Avropa şəhərləri ilə oxşar və fərqli cəhətlərini araşdırmaq zəruridir. (bax: 5, 7, 8, 12, 13, 15).

Azərbaycanın orta əsr şəhərlərinə xeyli sayda tədqiqatlar həsr olunmuşdur; onların içərisində XVI-XVII əsrlərdə şəhərlərin sosial-iqtisadi, siyasi tarixi ilə bağlı əsərlər də xeyli miqdardadır (2,7, 8, 9, 10, 19). Fiкrimizcə, bu sahədə ilк mühüm addım məşhur şərqşünas V.V.Bartolda məxsusdur. Şərq tarixi üzrə fundamental əsərləri ilə tanınan V.V.Bartold Azərbaycan və İran şəhərlərinin qədim tarixinə eкsкurs edərəк orta əsrlər dövrünü də tədqiq edir – «İranın tarixi-coğrafi icmalı»nda o, «Herat», «Seyis-tan, Əfqanıstanın cənub hissəsi və Belucistan», «Xorasan», «Rey və Həmədan», «Kuhistan, Kərman və Məкran», «Fars», «İsfahan, Kaşan və Qum», «Həmədandan şimaldaкı dağlar», «Azərbaycan və Ermənistan» bölmələrini ayırır və adı çəкilən bölgələrdəкi, o cümlədən Səfəvilərin haкimiyyəti altında olmuş şəhərlərin tarixini verir (4, VII).

V.V.Bartoldun adı çəкilən məqalələri üçün bu və ya digər şəhərin iqtisadi inкişaf istiqamətləri və göstəricilərinin dövrlər üzrə müqayisəsi və çoxlu sayda mənbələrə istinad səciyyəvidir. Maraqlıdır кi, müqayisə zamanı şərqşünas Səfəvilərin, xüsusilə Şah I Abbasın (1587-1629) haкimiyyətinə xüsusi diqqət yetirir. Bu məlumatlar hər şəhər üçün sistemli olmasa da, bir neçə istiqamətdə verilir: 1) şəhər əhalisinin sayı; 2) şəhərin siyasi idarəçiliyi; 3) iqtisadi vəziyyəti o cümlədən ticarət əlaqələri; 4) aparılan abadlıq işləri və şəhərin mədəni həyatı. Şəhər idarəçiliyi, şəhərlərdəкi sosial həyat və şəhərli təbəqəsinin xaraкteristiкası V.V.Bartoldun məqalələri üçün səciyyəvi deyil.

Azərbaycanı Midiyanın şimal-qərb hissəsi кimi təqdim edən V.V.Bartold (4,VII, s. 203) onun tarixini Maкedoniyalı İsgəndərin yürüşlərindən başlayaraq verir. Şəhərlərin qısa tarixi icmalını verən müəllif orta əsrlərdə Azərbaycanın mühüm inzibati və siyasi mərкəzi olan Ərdəbil şəhərini XVII əsr səyyahlarının Venesiya ilə

müqayisə etdikərini bildirir (4, VII, s.204; həmçinin bax: 4, I, s.200). XIV əsrin müəllifi Həmdullah Qəzvinin məlumatlarına görə, Ərdəbil əhalisi sünniliyin şafii məzhəbinə etiqad etmişlər (4,VII, s.204). Şiə məzhəbli Səfəvilərin ulu babası Şeyx Səfi-əd-Din də şafii olmuşdur. Eyni zamanda bu şəhər Bartoldun qeyd etdiyi kimi, XV əsrin sonuna doğru şiə hərəkatını da yetişdirmişdir. Səfəvilərin Ərdəbilə verdikləri dəyəri isbatlamaq üçün V.V.Bartold Şah I Abbasın bu şəhərə vəqf olaraq zəngin kitabxana verdiyini göstərir (4, VII, s. 205, qeyd 16).*

Təəccüblüdür ki, V.V.Bartold Azərbaycanın orta əsrlərdə daha bir mühüm şəhəri, o cümlədən uzun müddət paytaxt rolu oynayan Təbrizin Səfəvilər dövründə inkişafı məsələlərinə toxunmur. Şəhərin yüksəlişini daha çox monqolların hakimiyyəti dövrü ilə əlaqələndirən tarixçi Qazan-xanın dövründə (1225-1304) burada geniş miqyaslı tikinti işləri aparıldığını, əhalinin sayının Avropa səyyahı Klavixonun məlumatlarına əsaslanaraq, XV əsrin əvvəllərində 200 000 olduğunu, XVII əsrdə isə 550 000-ə çatdığını (Şardenə istinad edərək) göstərir (4, VII, s. 207-209). Bununla əlaqədar, bir məsələyə diqqət yetirmək lazımdır ki, V.V.Bartold bu və ya digər şəhərin əhalisinin sayı haqqında mənbələrin verdiyi məlumata müdaxilə etmir. Məlumdur ki, qeyd olunan dövrdə şəhər əhalisinin təqribi sayını müəyyən etmək üçün təbii fəlakətlər, epidemiyalar zamanı həlak olanlar haqqında məlumat verən mənbələrə əsaslanmaq lazım gəlir; həmin mənbələr isə bu fəlakətlərin miqyasını şişirtmək məqsədilə həlak olanların da sayını süni şəkildə artırır. Bu səbəbdən, V.V.Bartoldun orta əsr müəlliflərinin belə məlumatlarını ciddi qəbul etməsi təəccüblüdür.

Azərbaycanın iri şəhərlərini ticarət-iqtisadi baxımdan səciyyələndirən V.V.Bartoldun fikrincə, «hələ X əsr ərəb coğrafiyaşünasları dövründə Ermənistanın və Zaqafqaziyanın (Cənubi Qafqazın –R.Ş.) şəhərləri ticarət-sənaye inkişafı baxımından Azərbaycan (oxu: Cənubi Azərbaycan-R.Ş.) şəhərlərindən üstün idi» (4, VII, s.211) Qeyd edək ki, bu fikir Y.Manandyanın əsərində də mühüm xətt olaraq keçir (17). Lakin elə həmin ərəb mən-bələrinə və arxeoloji materiallara əsaslanan digər tədqiqatçılar Azərbaycan şəhərlərinin (Arazdan istər şimala və cənuba) IX-X əsrlərdə Xilafətdə mühüm beynəlxalq ticarət sənətkarlıq mərkəzləri olduğunu, Ermənistan şəhərlərinin isə daha çox regional ticarətdə iştirakını göstərirlər (6, 17, 19, 16). Səfəvilərin hakimiyyəti dövründə bu şəhərlərdə aparılan abadlıq işlərini isə (o cümlədən İrəvan yaşayış məskəninin XV əsrdə Şah I İsmayılın dövründə şəhərə çevrildiyini) Bartold özü də xüsusi qeyd edir (4, VII, s.212-213).

Yuxarıda qeyd etdiyimiz kimi, Şah I Abbasın iqtisadi fəaliyyətinə mühüm yer ayıran V.V.Bartold Səfəvilər imperiyasının digər şəhərlərini də səciyyələndirir. Beynəlxalq ticarətə böyük

* Bu kitabxananın böyük bir hissəsi 1828-ci ildə Paskeviç tərəfindən hərbi qənimət olaraq Peterburqa göndərilmişdi (4,VII, s.205)

əhəmiyyət verən Səfəvi şahı ilk növbədə yolların qaydaya salınmasını və bu ticarətə müvafiq təmin olunması məqsədilə xeyli tədbirlər həyata keçirmişdi (bax: 10, s. 4, VII, s. 271 və s.). V.V.Bartold Teymurilərdən sonra Səfəvilər dövlətinin tərkibinə qatılan Heratın, müəyyən dövrlərdə Moğol imperiyası hakimiyyətində olan Qəndəharın və həmçinin Şirazın bərpasının və yüksəlişinin məhz I Abbasın dövründə baş verdiyini, şahın vəfatından sonra onların yenidən tənəzzülə uğradığını qeyd edir (4, VII, s.79, 95, 159).

I Abbasın şəhər siyasətini tədqiq edən V.V. Bartold İsfahana xüsusi yer ayırmaya bilməzdi: bu şəhəri dövlətin paytaxtı edən Şah Abbas onun abadlığına böyük diqqət yetirirdi. Avropa səyyahlarının məlumatlarına əsaslanan tarixçi göstərir ki, I Abbasın dövründə şəhərin sahəsi 35 verstə, qapılarının sayı 12-ə çatdırılmışdı (4, VII, s. 172). Şəhərin mərkəzində «şah meydanı», orada isə şahın sarayı, cümə məscidi və bazarlar yerləşirdi. Cümə məscidi təx. 1612-1613-cü illərdə tikilmişdi (4,VII, s.173, qeyd 30). Şahın 12 sütunlu və mərmər hovuzlu sarayı meydanın cənub-qərbinə Əli-Qapısı ilə çıxırdı. V.V.Bartold sarayın bəzi zallarında divar rəsmlərinin bəzilərini xüsusi qeyd edir: bu, Şah I İsmayılın (2 rəsm), Şah Təhmasibin, I Abbasın və II Abbasın həyatından bəzi səhnələri əks etdirən rəsmlərdir.

Bir tərəfdən, böyük əminliklə İsfahan əhalisinin sayının 500.000-ə çatdığını göstərən V.V.Bartold, digər tərəfdən, şəhərin, səyyah Tavernyenin təbirilə, «böyük kəndə bənzədiyini» də qeyd edir (4, VII, s. 175). Daha sonra V.V.Bartold İsfahandan istiqamətlənən ticarət yollarını təsvir edir (4, VII, s.175-176) və onların uzun müddət dəyişikliyə uğramadığını göstərir. Bu da təəccüblü deyil: çünki bu və ya digər şəhərin daxili və xarici ticarət yollarında mövqeyinin müəyyən olunması xeyli zaman tələb edirdi, şəhərin iqtisadi və siyasi inkişafından asılı olurdu; ona görə də ticarət yolları mühafizəkar səciyyə daşıyırdı.

Məlumdur ki, Fars körfəzi orta əsrlərin ən mühüm ticarət mərkəzlərindən olmuşdur: qədim dövrdə Nineviya, Babil, Ktesifon, Antioxiya, Palmira, Xilafət dövründə Bəsrə, Bağdad, Hələb bu ticarətin əsas məntəqələri idi. XIII-XVI əsrlər Fars körfəzi ticarətin yüksəliş dövrü sayılır (21, s.30-31). Bu zaman Avropa dövlətlərinin Hind okeanı vilayətlərə müstəmləkə ekspansiyasının başlaması da körfəzə olan diqqəti artırır. I Abbas bacarıqlı siyasətçi və diplomat olduğu üçün, Fars körfəzi ticarəti qədər əlində saxlamağa çalışırdı: 1612-ci ildə Türkiyə ilə müharibəni başa çatdıran şahın xarici siyasətində əsas məsələ də Hörmüzün - körfəz ticarətinin mühüm mərkəzinin portuqallardan geri alınması idi. Bu mənada Şah Abbasla ingilis Ost-Hind kampaniyasının maraqları üst-üstə düşürdü (1, s.35).

1622-ci ildə I Abbas portuqalları Hörmüzdən və Kişmdən sıxışdırıb çıxarmağa müyəssər olur. V.V.Bartoldun yazdığına görə, Şah Abbasın ölümündən sonra Hörmüz öz əhəmiyyətini itirir və öz yerini Qomburuna (Bəndər-Abbasa) verir (4, VII, s. 149). Hesab

edirik ki, burada müəyyən dəqiqləşdirməyə ehtiyac var: Hörmüzün müdafiəsi üçün zəruri donanması olmayan I Abbas bu limanın Ost-Hind kampaniyasının donanması üçün baza rolu oynamasına razı ola bilməzdi (1, s.39) və ona görə də Körfəz ti-carətinin mərkəzini Bəndər-Abbasa köçürmüşdü; ingilislərə Bəndər-Abbasda faktoriya yaratmaq və gömrüklərdən faiz götürmək hüququ verilmişdi (ingilislər isə Hörmüzün birgə idarəsinə ümid bəsləyirdilər). Yəni Bəndər-Abbasın Hörmüzü ticarət mərkəzi olaraq əvəz etməsi, V.V. Bartoldun göstərdiyi kimi, I Abbasın vəfatından sonra deyil, hakimiyyəti dövründə baş vermişdi və məqsədyönlü idi.

Xəzəryanı bölgəyə də böyük əhəmiyyət verən I Abbas Dərbənddə və Bakıda özündən sonra tikililər qoymuşdu (3, s.126). «Şah Abbasın Xəzəryanı bölgələrə münasibəti həmin yerləri türklərdən yalnız geri almaqla bitmir. O, Mazandaranı İranın mərkəzi bölgələrindən və İran yaylasından ayıran Elbrus dağından şosse yolu sadırmışdır. Dağlardan keçən bu yol Amul və Sari şəhərlərindən Astrabadadək uzanırdı... Xəzəryanı bölgələr ilin hər vaxtında əl çatan bir yerə çevrilmişdi» (3, s.128). Bakıda qala divarlarının bərpa edildiyini də I Abbasın dövrünə aid edən V.V.Bartold bunun 1608-1609-cu illərə aid kitabə ilə təsdiqləndiyini yazır (3, s.127).

Yekun olaraq qeyd etmək istərdik ki, nəzərdən keçirdiyimiz məsələlər V.V.Bartoldun adı çəkilən tədqiqatlarında həqiqətən, gərgin və ciddi əməyin nəticəsində verilmişdir. Təbii ki, bu elmi problem sonrakı dövrdə digər tədqiqatçılar tərəfindən işlənmiş, elmi yeniliklər meydana çıxmışdır. Lakin V.V.Bartoldun bu araşdırmalarının ən üstün tərəfləri böyük sayda mənbələrdən istifadə edilməsi, şərqşünasın mükəmməl qeyd və şərhləridir.

## ƏDƏBİYYAT


1. Ахмедов Б.А. Колониальная политика Англии на Востоке в I половине XVII века. – Автореферат… д.и.н. Б., 1992.
2. Ашурбейли С.Б. История города Баку. Б., 1993.
3. Bartold V.V. Müsəlman dünyası tarixində Xəzəryanı bölgələrin yeri. /Azərb. dilinə tərc. akad. Z.M.Bünyadov və t.e.n. E.R.Ağayevanındır. B., 1999.
4. 4. Бартольд В.В. Сочинения, т. I-II. М., 1963; т.VII. М., 1973 .
5. Большаков О.Г. Средневековый город Ближнего Востока. М., 1984.
6. Bünyadov Z.M. Azərbaycan VII-IX əsrlərdə. B., 1989.
7. 7.Гейдаров М.Х. Ремесленное производство в городах Азербайджана в XVII веке. Б., 1967.
8. Гейдаров М.Х. Города и городское ремесло Азербайджана XIII-XVII вв. Б., 1982.
9. Джидди Г.А. Средневековый город Шемаха (IX-XVII вв.) Б., 1981.
10. Əfəndiyev O.Ə. Azərbaycan Səfəvilər dövləti.B.,1993.
11. Əhmədov B.Ə. XVII əsrin I yarısında İngiltərənin Şərq siyasəti. B., 1998.
12. История средних веков. /Под. ред. С.П.Карпова, М., 2001. т.I-II.
13. История стран зарубежной Азии в средние века. М., 1970.
14. Казвини Хамдаллах. Нузхат ал-кулуб / Пер. З.М.Бунятова и И.П. Петрушевского, Б., 1983.
15. Конрад Н.И. Запад и Восток. Статьи. М., 1972.

16. Gözəlova Y.H. IX-XII əsrlərdə Azərbaycanın beynəlxalq ticarət əlaqələri (ərəb mənbələri əsasında) – Namizədlik dis. avtoreferatı. B., 2000.
17. Манандян Я.А. О торговле и городах Армении в связи с мировой торговлей древних времен. Ер., 1954.
18. Mahmudov Y.M. Azərbaycan tarixi. İntibah dövrü. B., 1997.
19. 19.Махмудов Я.М. Взаимоотношения государств Аккоюнлу и Сефевидов с западноевропейскими странами. Б., 1991.
20. Onullahi S.M. XIII-XVII əsrlərdə Təbriz şəhərinin tarixi. B., 1982.
21. Туманович Н.Н. Европейские державы в Персидском заливе в XVI-XIX вв. М., 1982.

## ВОПРОСЫ ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ АЗЕРБАЙДЖАНСКИХ ГОРОДОВ СЕФЕВИДСКОГО ПЕРИОДА В ИССЛЕДОВАНИЯХ В.В.БАРТОЛЬДА

**Р.Ш.ШАХБАЗОВА**

### АННОТАЦИЯ

В статье предлагается краткий обзор отдельных статей выдающегося востоковеда В.В.Бартольда по истории средневековых городов Азербайджана. Основное внимание уделяется вопросам экономического развития азербайджанских городов Сефевидского периода и степени их отражения в исследованиях В.В.Бартольда.